# May

*Mus.: Şəfiqə Axundova, söz.: Mir Mehdi Seyidzadə*






Uçur mayın böcəyi,
Gəzir gülü, çiçəyi.
Fəsillərin göyçəyi
Atlasdonlu ay gəlir,
Gülərüzlü may gəlir.

Dərə gülür, dağ gülür,
Göydən şəfəq tökülür.
Sevincindən đaşan Kür
Salıb bir haray gəlir,
Gülərüzlü may gəlir.

Bir adətdir, həmişə
Solan zaman bənövşə,
Qonar qızılgül döşə.
Hər nübardan pay gəlir,
Gülərüzlü may gəlir.

Aprelim şən, mayım şən,
Bəxtəvərəm, ay Vətən.
Övlad mənəm, ana sən.
Sevinc dolu ay gəlir,
Gülərüzlü may gəlir.